Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

Swiss Confederation

KAF

EDF
SBIIYF

“Konstitusiya” Araşdırmalar Fondu
Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)
İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi

**“Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması” layihəsi**

“Azərbaycan 2020: Gələcəyə baxiş” İnkişaf Konsepsiyasının

“**Vətəndaş cəmiyyətinin inkişafı**” istiqaməti üzrə

# Monitorinq Hesabatı

**Zaur İbrahimli**

**Bakı 2017**

**İÇİNDƏKİLƏR**


| | |
|---|---|
| 1. Monitorinqin məqsədi | 3 |
| 2. Monitorinq metodologiyası | 3 |
| 3. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında 9-cu – Vətəndaş cəmiyyətinin inkişafı istiqaməti üzrə qarşıya qoyulan məqsədlər | 3 |
| 4. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının qəbulu - Kontekst | 4 |
| 5. Vətəndaş cəmiyyətinin 2012-ci ilə qədərki vəziyyəti. Müqayisəli təhlil | 6 |
| 6. 2013-2014-cü illərdə QHT qanunvericilyinə dəyişikliklər və VC üçün yaranmış problemlər | 13 |
| 7. Mövcud vəziyyət | 17 |
| 8. Nəticələr | 18 |
| 9. Təkliflər - Böhrandan normalaşmaya doğru | 19 |

## 1. MONITORINQIN MƏQSƏDI:

Monitorinqin məqsədi bütün maraqlı tərəfləri Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında 9-cu – Vətəndaş cəmiyyətinin inkişafi istiqaməti üzrə irəliləyişlərlə bağlı müstəqil qiymətləndirmə ilə təmin etməkdir. Monitorinq zamanı Konsepsiyasında 9-cu – Vətəndaş cəmiyyətinin inkişafi istiqaməti üzrə inkişaf və problemlər təsvir olunub və vətəndaş cəmiyyətinin inkişafının ümumi aspektləri ilə bağlı tövsiyyələri müəyyən olunub.

## 2. MONITORINQ METODOLOGIYASI:

Monitorinq ekspert araşdırmasının nəticələri əsasında hazırlanıb. Ekspert araşdırması zamanı açıq mənbələrdən (xəbərlər, rəsmi hesabatlar, statistika, yerli və beynəlxalq təşkilatların hesabatları, hazırladıqları sənədlər və digər ictimaiyyətə açıq informasiyalar) toplanmış məlumatların analizi aparılıb. Vətəndaş cəmiyyətinin təşkilatlatları, fəalları, müstəqil ekspertlərlə müsahibələr keçirilib. Əldə olunmuş nəticələr, qənaətlər sistemləşdirilib.

## 3. "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKIŞAF KONSEPSIYASINDA 9-CU – VƏTƏNDAŞ CƏMIYYƏTININ INKIŞAFI ISTIQAMƏTI ÜZRƏ QARŞIYA QOYULAN MƏQSƏDLƏR

Konsepsiyada qarşıya qoyulan məqsədləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) **"Vətəndaş cəmiyyətinin inkişafı sahəsində Milli Fəaliyyət Proqramı" hazırlanması:**

Vətəndaş cəmiyyətinin inkişafi Azərbaycanın sürətli sosial-iqtisadi inkişafi və milli maraqlarının təmin olunmasının daha da dərinləşdirilməsini, dövlətlə vətəndaş cəmiyyəti institutları arasında münasibətlərin daim müasirləşdirilməsini, QHT-lərin fəaliyyətinin stimullaşdırılmasını zəruri edir. Konsepsiyanın həyata keçiriləcəyi dövrdə vətəndaş cəmiyyətinin inkişafi, dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın təkmilləşdirilməsi istiqamətində dövlət siyasəti davam etdiriləcəkdir. Bu məqsədlə "Vətəndaş cəmiyyətinin inkişafi sahəsində Milli Fəaliyyət Proqramı" hazırlanacaq və həyata keçiriləcəkdir. Proqramda vətəndaş cəmiyyətinin inkişafını stimullaşdıran, dövlətin və özəl sektorun vətəndaş cəmiyyətinə dəstəyini gücləndirən yeni qanunvericilik aktlarının hazırlanıb qəbul edilməsi, QHT-lərin layihə və proqramlarına maliyyə yardımının artırılması, "QHT evləri"nin, tədris mərkəzlərinin yaradılması və digər məsələlər öz əksini tapacaqdır.

2) **Dövlətlə ictimai təşkilatlar arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi:**

Dövlətlə ictimai təşkilatlar arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi, ictimai həyatın müxtəlif sahələrində mövcud olan problemlərin alternativ həlli yolları ilə bağlı QHT-lərin əsaslandırılmış təklifləri diqqət mərkəzində saxlanılacaqdır. Mühüm dövlət proqramlarının hazırlanması prosesinə QHT-lərin cəlb olunması, dövlət komissiyalarının işində onların yaxından iştirakı təmin ediləcəkdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyinin dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara çatdırılması yönündə QHT-lərin potensialından daha səmərəli istifadə olunacaqdır.

3) **Vətəndaş cəmiyyətinin inkişafı üçün özəl sektorun donor fəaliyyətinin stimullaşdırılması:**

Vətəndaş cəmiyyətinin inkişafi üçün özəl sektorun donor fəaliyyətini stimullaşdırmaq və bu sahədə institusional səviyyəyə nail olmaq vacibdir. Milli donor institutunun yaradılması korporativ sosial məsuliyyət mədəniyyətinin formalaşmasına, transmilli şirkətlərin, böyük biznes qurumlarının sosial sərmayə proqramlarının artmasına təkan verəcəkdir. Buna nail olmaq məqsədi ilə korporativ məsuliyyət üzrə strategiya və dövlət proqramları hazırlanacaq, qanunvericiliyə müvafiq dəyişikliklər ediləcəkdir. Konsepsiyanın həyata keçirildiyi müddətdə vətəndaş cəmiyyəti təşəbbüslərinin nəzərə alınaraq tətbiq olunması dövlət orqanları ilə QHT-lər arasındakı qarşılıqlı münasibətləri daha da dərinləşdirəcək, regionlarda QHT-lərin sayı artacaq və maddi-texniki bazası gücləndiriləcəkdir.

## 4. "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKIŞAF KONSEPSIYASININ QƏBULU - KONTEKST

"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında 9-cu – Vətəndaş cəmiyyətinin inkişafi istiqaməti üzrə irəliləyişlərlə bağlı obyektiv qiymətləndirmə aparılması üçün sənədin qəbul olunduğu zaman və kontekstin təhlilinə ehtiyac var. Bu təhlil Konsepsiyada Vətəndaş cəmiyyətinin inkişafi ilə bağlı qarşıya qoyulan məqsədlərin nə dərəcədə ambisiyalı olduğunu, əhəmiyyətini və strateji xarakter kəsb etdiyini dəyərləndirməyə imkan verir. Konsepsiyanın ümumi təhlili göstərir ki, digər istiqamətlərlə müqayisədə vətəndaş cəmiyyətinin inkişafi ilə bağlı müəyyən edilən məqsədlərdə daha az ambisiya nəzərə çarpır. Bu məqsədlər daha çox institusional dəstək və dövlət-vətəndaş cəmiyyəti əlaqələrinin gücləndirilməsi tədbirlərini nəzərdə tutur. Vətəndaş cəmiyyətinin hüquqi dövlətin əsas komponentlərindən biri kimi dövlətdən asılı olamayan azad fərdlərin, vətəndaşların könüllü birliklərinin, assosiasiyaların öz fərdi və kollektiv maraqlarını reallaşdırdığı sektor kimi konseptual inkişafi məsələləri öz əksini tapmayıb. Konsepsiyada "institusional dəstək" yanaşması əsas götürülüb. Bu yanaşmada vətəndaş cəmiyyətinin inkişafi ilə bağlı öhdəliklər və həyata keçirilməsi nəzərdə tutulan vəzifələr institusional dəstək, dövlətlə əlaqələrin güclədrilməsi və özəl sektorun əməkdaşlığa təşviq edilməsi tədbirləri ilə ehtiva olunub.

Konsepsiyanın qəbul olunduğu vaxt, artan neft gəlirləri müxətlif sahələrdə, sektorlarda dövlət proqramları, konsepsiya və strategiya xarakterli sənədlərin qəbuluna yol açmışdı.

2013-cü ildə 2003-cü ildən ötən 10 il ərzində ÜDM-in 10 dəfəyə yaxın artması qeydə alınmışdı. 2012-ci ildə ölkədə 54.0 milyard manat dəyərində və ya əvvəlki illə müqayisədə 2.2% çox ÜDM istehsal olunmuş, adambaşına düşən ÜDM-in həcmi 5884.5 manat və ya 7490.5 ABŞ dolları təşkil etmişdir. Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin həcmində 9.7% artım müşahidə olunmuş, onun ÜDM-də xüsusi çəkisi 52.7% təşkil etmişdir. ÜDM-in 47.3%-i neft-qaz hasilatı və emalı sahələrinin payına düşmüş və bu sahədə 2011-ci ilə nisbətən 5.0% azalma qeydə alınmışdı[1].

1995-2012-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş 144.4 milyard dollar investisiyanın 50.7%-i, yəni 73.2 milyard dollara yaxını xarici investisiyalar olmuşdur. Bu illərdə ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların 29.7 milyard dolları qeyri-neft sektorunun, 43.5 milyard dolları isə neft sektorunun inkişafına yönəldilmişdir.

2012-ci ildə dövlət büdcəsinin xərcləri 2011-ci ilə nisbətən 13.1% və ya 2019,0 milyon manat artaraq, 17416.5 mln. manat təşkil etmişdir. Büdcə xərcləri qeyri-neft ÜDM-in 61.2%-i həcmində olmuşdur.

2012-ci il ərzində Dövlət Neft Fondunun gəlirlərinin ümumi həcmi 13674,1 milyon manat, Fondun büdcə xərclərinin ümumi məbləği isə 10573.6 milyon manat təşkil etmişdir.

2012-ci ilin 31 dekabr tarixinə Fondun vəsaiti il ərzində 3353,8 milyon manat (4329,4 milyon ABŞ dolları) artaraq 26791,5 milyon manat və yaxud 34129,4 milyon ABŞ dolları təşkil etmişdir.

2012-ci ildə Dövlət Neft Fondundan dövlət büdcəsinə 9905,0 milyon manat məbləğində vəsait köçürülmüşdür ki, bu da Dövlət Neft Fondunun büdcə xərclərinin 93,7%-ni təşkil etmişdir

Ölkənin strateji valyuta ehtiyatları 30 dekabr 2012-ci il tarixinə 46,1 milyard dollara çataraq ÜDM-in təxminən 70%-ə bərabər olmuşdur.

İqtisadi İnkişaf Nazirliyinin "Azərbaycan Respublikasının 2014-cü il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri" adlı sənəddə qeyd olunurdu ki, valyuta ehtiyatları 3 illik əmtəə və xidmət idxalının maliyyələşməsinə kifayət edir, xarici dövlət borcunu təxminən 10 dəfə üstələyir[2].

2005-ci ildən bəri artan neft gəlirləri perspektivə nikbin baxış üçün kifayət qədər əsaslar verirdi. Təsadüfi deyil ki, Konsepsiya qəbul olunan ərəfədə Azərbaycanda 60-a yaxın dövlət proqramı, strategiya və konsepsiya təsdiqlənmişdi. **Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası isə bir-biri ilə əlaqələi olan bu** istiqamətləri uzlaşdırılmış şəkildə əhatə edən, konseptual baxış və yanaşmanı əks etdirən əsas strategiya xarakterli sənəd kimi nəzərdən keçirilirdi[3].

2012-ci ilin sonunda Konsepsiyada vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı qarşıya qoyulan hədəf və məqsədlər kifayət qədər real və yerinə yetirilə bilən görünürdü. Əvvəldə də qeyd edildiyi kimi, vətəndaş

---

1 http://webcache.googleusercontent.com/search?q=cache:8U4ldczU5EgJ:economy.gov.az/doc/2014-2017-ikpg.doc+&cd=1&hl=en&ct=clnk&gl=az

2 http://webcache.googleusercontent.com/search?q=cache:8U4ldczU5EgJ:economy.gov.az/doc/2014-2017-ikpg.doc+&cd=1&hl=en&ct=clnk&gl=az

3 http://www.elibrary.az/docs/qazet/qzt2012_2741.pdf ("Azərbaycan".-2012.-5 dekabr.-N 271.-S.1. Akademik R.Mehdiyev. "Azərbaycan 2020: gələcəyə baxış» Konsepsiyası respublikamızın inkişaf etmiş ölkəyə çevrilməsində mühüm rol oynayacaq)

cəmiyyətinin inkişafi ilə bağlı daha çox institusional yanaşma əsas götürülmüşdü və bu tədbirlərin həyata keçirilməsi üçün hökumət kifayət qədər maliyyə resurslarına malik idi.

## 5. VƏTƏNDAŞ CƏMIYYƏTININ 2012-CI ILƏ QƏDƏRKI VƏZIYYƏTI. MÜQAYISƏLI TƏHLIL

Konsepsiya qəbul olunana qədər, artıq 5 il idi ki, yerli QHT-lər dövlət büdcəsindən mərkəzləşdirilmiş qaydada maliyyələşdirilirdi. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il tarixli 27 iyul tarixli sərəncamı ilə Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası təsdiq edilmişdi. Konsepsiyada qeyd olunurdu ki, "qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin məqsədləri cəmiyyətimizdə yeni münasibətlər modelinin formalaşdırılması, vətəndaş cəmiyyəti institutlarının müasirləşdirilməsi, vətəndaş təşəbbüsünün artırılması, milli maraqların qorunması sahəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin təşviq edilməsi, onların sosial əhəmiyyətli problemlərin həllinə cəlb olunması, dövlət və cəmiyyətin inkişafi üçün əhəmiyyət kəsb edən proqram və layihələrin maliyyələşdirilməsidir"[4]. Konsepsiya ilə dövlət dəstəyinin verildiyi 14 prioritet sahədə müəyyənləşmişdi. Konsepsiyada qeyd olunurdu ki, "müasir dövrdə qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti quruculuğu və ölkənin demokratikləşməsi prosesinin vacib institutlarından birinə çevrilir. Belə şəraitdə dövlət orqanları ilə qeyri-hökumət sektorunun bərabərhüquqlu tərəfdaşlıq prinsipləri əsasında sıx əməkdaşlığı vətəndaş cəmiyyətinin inkişafi, demokratiyanın dərinləşməsi, qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması və milli maraqların qorunması üçün böyük əhəmiyyət kəsb edir.

Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin təhlili göstərir ki, hazırda müxtəlif istiqamətlər üzrə vətəndaş cəmiyyəti institutlarının kifayət qədər sabit qrupları formalaşmışdır. Ölkədə qaçqın, məcburi köçkün, əlil və veteranların problemlərinin həlli sahəsində 73, hüquq müdafiəsi ilə bağlı 121, uşaq və gənclərlə bağlı 191, gender məsələləri üzrə 79, səhiyyə yönümlü 68, ekologiya sahəsində 77, iqtisadi yönümlü 218, sahibkarlıqla bağlı 63, təhsil, elm və texnika sahəsində 176, jurnalistlərin problemləri ilə bağlı 43, mədəniyyət və incəsənətlə bağlı 113 və digər təşkilatlar dövlət qeydiyyatından keçmişlər".

Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 2007-ci tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılmışdı. Şuranın Əsasnaməsində qurumun əsas məqsədinin vətəndaş cəmiyyətinin möhkəmlənməsinə və davamlı inkişafına nail olmaqdan, ictimai əhəmiyyətli problemlərin həllində Qeyri-Hökumət Təşkilatlarının rolunu artırmaqdan ibarət olması qeyd edilib.

2008-2012-ci illərdə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası QHT-lərin layihələrinin maliyyələşdirilməsinə **9 446 368** manat vəsait ayırmışdır.

**2012-ci ildə Azərbaycanda hər qeyri-hökumət təşkilatının orta hesabla 37,5 min manat qrant vəsaiti alması barədə məlumatlar açıqlanıb.** Nazirlər Kabinetinin 2012-ci il üçün hesabatına əsasən

[4] http://e-qanun.az/framework/13653

Ədliyyə Nazirliyinə ümumi məbləği 39 mln. 542,57 min manat həcmində (2011-ci müqayisədə +21%) 1054 qrant sazişi daxil olub. QHT-lərə daxilolmaların mənbələri əsasən hökumət strukturları (2012-ci ildə QHT-lərə Dövlət Dəstəyi Şurası 2 mln. 031 manat məbləğində 348 layihəni, Gənclər və İdman Nazirliyi 851, 59 min manat məbləğində 57 layihəni dəstəkləyib. İqtisadi İnkişaf Nazirliyi qrant əsasında 8 hüquqi şəxsə 82,44 min manat, $436,29 min və 134,75 min avro ayırıb). Digər mənbələr barədə informasiya verilməyib[5].

Azərbaycanda insan hüquqları, təhsil, səhiyyə, mədəniyyət, iqtisadiyyat, sosial məsələlər, ekologiya, gender və digər sahələrə aid **2700-dən** artıq QHT dövlət qeydiyyatından keçmişdi.

Müqayisə üçün qeyd edək ki, 2012-ci ildə Albaniyada 1641 QHT qeydə alınıb. Albaniyada VCT-yə Dəstək Agentliyinə 1.225 mln dollar ayrılıb. Qrantların orta dəyəri 18000 dollar təşkil edib.

Çexiyada 103735 qeyri-kommersiya təşkilatı qeydə alınıb. Qeyri-kommersiya təşkilatları dövlətdən 850 milyon dollar dövlətdən qrant alıblar.

Bolqarıstanda 35000 qeyri-kommersiya təşkilatı qeydə alınıb. Hökumət VC Dəsətək Strategiyası qəbul edib. Korporativ donorlardan VC-yə ayrılan qrantın həcmi 7.8 mln avro təşkil edib. Fərdi ianələr isə 550 min avro təşkil edib.

Estoniyada 300 qeyri-kommersiya təşkilatı qeydə alınıb. Milli VCT Fondu 1.8 mln avro qrant ayırıb. Dövlət büdcəsindən ayırlan qrantlar 7 mln avro təşkil edib. VCT-lərin də qatıla biləcəyi qrant müsabiqələrinin ümumi fondu 60 mln avro olub.

Belarusda 31 dekabr 2012-ci il tarixə olan məlumata görə 2477 QHT qeydə alınıb.

Gürcüstanda 17217 qeyri-kommersiya təşkilatı qeydə alınıb. Dövlət büdcəsi hesabına 602600 dollar qrant ayırlıb. Ədliyyə Nazirliyi QHT-lərə 60260 dollar qrant ayırıb.

**ABŞ Beynəlxalq İnkişaf Agentliyi VCT Davamlı İnkişaf İndeksi üzrə 2011-ci ili əhatə edən hesabatında** VCT-lərin davamlılıq indeksi 4,7 bal olub[6]. Hesabatda qeyd edilib ki, "Azərbaycan QHT-ləri ölkədə son illərdə müşahidə olunan iqtisadi artımdan yararlana bilməyiblər. Azərbaycanda QHT sektoru fəal olsa da, tam inkişaf etməyib. Qeydə alınan QHT-lərin sayı 2725 olub, bunların da əksəriyyəti ictimai birliklərdir. Cəmi 1350 QHT ötən il Maliyyə Nazirliyinə maliyyə hesabatı verib, bu isə o deməkdir ki, bütün qeydə alınmış QHT-lərdən yarısı fəaliyyət göstərir. 2009-cu ildə 162, 2010-cu ildə 124 QHT qeydə alındığı halda, 2011-ci ildə 106 QHT qeydə alınıb".

QHT-lərin maliyyə imkanlarına gəlincə, hesabata görə, Azərbaycanda qeyri-hökumət təşkilatları sektorunun 2011-cu il üçün qrant büdcəsi 29 milyon manat olub. Bu məbləğin 2,05 milyon manatı dövlət büdcəsindən ayrılıb.

**ABŞ Beynəlxalq İnkişaf Agentliyi VCT Davamlı İnkişaf İndeksi 2010-2012-ci illərdə Azərbaycandakı vəziyyəti müqayisə etməyə imkan yaradır (Şəkil 1, Şəkil 2 və Şəkil 3)**

**Şəkil 1**



**Şəkil 2**




**Şəkil 3**[7]

## 2012 CSO SUSTAINABILITY INDEX SCORES

| COUNTRY | Legal Environment | Organizational Capacity | Financial Viability | Advocacy | Service Provision | Infra-structure | Public Image | CSO Sustainability |
|---|---|---|---|---|---|---|---|---|
| EURASIA: Russia, West NIS, and Caucasus | | | | | | | | |
| Armenia | 3.9 | 3.8 | 5.2 | 3.4 | 3.9 | 3.4 | 4.0 | 3.9 |
| Azerbaijan | 4.7 | 4.5 | 5.5 | 4.6 | 4.6 | 4.4 | 4.7 | 4.7 |
| Belarus | 6.8 | 5.1 | 6.5 | 5.7 | 5.4 | 5.3 | 5.9 | 5.8 |
| Georgia | 3.3 | 4.2 | 5.0 | 4.2 | 4.1 | 4.3 | 4.0 | 4.2 |
| Moldova | 4.2 | 3.9 | 5.0 | 3.5 | 4.4 | 3.6 | 3.9 | 4.1 |
| Russia | 4.7 | 4.4 | 4.9 | 4.1 | 4.3 | 4.0 | 4.7 | 4.4 |
| Ukraine | 3.5 | 3.4 | 4.3 | 2.5 | 3.3 | 3.4 | 3.6 | 3.4 |

Qrafiklərdən də göründüyü kimi 2010-2012-ci illərdə Azərbaycanda vətəndaş cəmiyyəti hesabatda təhlil olunan ölkələr arasında yalnız Belarusu qabaqlaya bilib. Bununla belə, Azərbaycanda VC-nin inkişaf indeksində yeri "Davamlılıq inkişaf edib" kimi xarakterizə olunur. Yalnız maliyyə imkanlarına görə Azərbaycanın balı 5-dən yükək olub. Hüquqi mühit, Təşkilati Bacarıqlar, İctimai Məlumatlandırma,

[7] https://www.usaid.gov/sites/default/files/documents/1863/2012CSOSI_0.pdf

Xidmətlərin göstərilməsi, İnfrastruktur, İctimai imic üzrə göstəricilər MDB ölkələri göstəricilərinə yaxındır.

Ümumi qənaət bundan ibarətdir ki, Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı Şərqi Avropa ölkələrinin orta göstəriclərindən aşağı olsa da, bu sahədə qabaqcıl MDB ölkələrinin orta göstəricilərinə yaxın olub.

Azərbaycanda vətəndaş cəmiyyətinin əsas problemləri kimi dövlət qeydiyyatı prosedurlarının mürəkkəb olması və qeydiyyat prosedurunun çətinliyi, dövlət qurumları ilə əməkdaşlığın institusional səviyyəyə qalxmaması, maliyyələşmədə xarici donorlardan asılılığın yüksək həddə olması, qeydə alınmış QHT-lərin yalnız 20%-nin fəal olması, özəl sektorla çox zəif əməkdşalıq, ianə sisteminin və könüllüyün çox zəif inkişaf etməsini qeyd etmək olar.

Beynəlxalq Şəffaflıq Təşkilatının milli bölməsi "Şəffaflıq Azərbaycan" tərəfindən hazırlanan Milli Şəffaflıq Sistemi Qiymətləndirilməsi hesabatında bu problemlər vurğulanıb: "Vətəndaş cəmiyyəti idarəetmə, menecment və maliyyə vəsaitlərinin cəlb edilməsi sahələrində ixtisaslaşmış kadrlara, institusional potensialının artırılmasına, həmçinin şəffaflığın və hesabatlılığın inkişaf etdirilməsinə ehtiyac duyur. Maliyyələşmənin davamlı olmaması QHT-lərin ictimai həyatda fəal iştirakına ciddi maneələr yaradır və ölkənin ictimai-siyasi gündəliyinə təsir imkanlarını azaldır. Vətəndaşları ictimai məsələlər barəsində məlumatlandırmaq, ortaq problemlərin həlli üçün insanların təşkilatlanma, resursları səfərbər etmə və birgə işləmə potensialını inkişaf etdirmək, hüquqi yardım göstərmək istiqamətində vətəndaş cəmiyyəti daha uğurlu fəaliyyət göstərə bilir. Vətəndaş cəmiyyəti büdcənin formalaşdırılması və büdcə xərcləri üzərində nəzarət imkanları, hökumətin hesabatlılığına nail olunması və hökumətin siyasətinin formalaşmasında iştirakını artırmalıdır. Azərbaycanda vətəndaş cəmiyyəti hələ tam yetkin deyil, o, institusional potensialının artırılması və konsolidasiya kimi ağrılı proseslərdən keçir. Eyni zamanda, vətəndaş cəmiyyəti öz siyasi təmayülü və hökumətlə əməkdaşlıq dərəcəsi baxımından qütbləşib"[8].

## Vətəndaş cəmiyyətinin inkişafı istiqaməti üzrə nəzərdə tutulan tədbirlərin icrası vəziyyəti

### Strateji hədəf 1

| Strateji hədəf | Vəzifələr | Həyata keçirlən tədbilər |
|---|---|---|
| **"Vətəndaş cəmiyyətinin inkişafı sahəsində Milli Fəaliyyət Proqramı" hazırlanması** | VCT-nin inkişafını stimullaşdıran, dövlətin və özəl sektorun vətəndaş cəmiyyətinə dəstəyini gücləndirən yeni qanunvericilik aktlarının hazırlanıb qəbul edilməsi | Proqram qəbul edilməyib.<br>2014-cü il iyunun 1-dən "İctimai iştirakçılıq haqqında" qanun qüvvəyə minib. |
| | QHT-lərin layihə və proqramlarına maliyyə yardımının artırılması | 2007-ci ildən fəaliyyətə başlayan AR Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası 2013 -2016-cı illərdə 1**936** layihəyə **16 967 802** AZN qrant vəsaiti ayırıb. |

[8] http://transparency.az/NIS/V%C6%8FT%C6%8FNDA%C5%9E%20C%C6%8FM%C4%B0YY%C6%8FT%C4%B0.pdf

| | | |
|---|---|---|
| | "QHT evləri"nin, tədris mərkəzlərinin yaradılması | Şəmkir, Mingəçevir, Qəbələ, Quba və Şirvanda QHT-lərin Resurs və Təlim Mərkəzləri yaradılıb |

## Strateji hədəf 2

| Strateji hədəf | Vəzifələr | Görülmüş işlər |
|---|---|---|
| **Dövlətlə ictimai təşkilatlar arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi** | İctimai həyatın müxtəlif sahələrində mövcud olan problemlərin alternativ həlli yolları ilə bağlı QHT-lərin əsaslandırılmış təklifləri diqqət mərkəzində saxlanılması<br><br>Mühüm dövlət proqramlarının hazırlanması prosesinə QHT-lərin cəlb olunması, dövlət komissiyalarının işində onların yaxından iştirakı təmin edilməsi | 8 mərkəzi icra hakimiyyəti orqanı, iki yerli icra hakimiyyəti yanında İctimai Şuralar Fəaliyyət göstərir.<br><br>Ali məktəblərdə İctimai Şuralar yaradılıb.<br><br>09.09.2016- ildə 9 dövlət qurumu, parlament təmsilçisi və 31 QHT-ni birləşdirən Açıq Hökumət Platforması yaradılıb[9].<br><br>Milli Məclis və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.<br><br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası arasında birgə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.<br><br>VC-nin qismən də olsa dövlət proqramlarının, Fəaliyyət Planlarının və normativ-hüquqi aktların hazırlanması prosesinə cəlb olunması praktikası təşəkkül tapıb:<br><br>VC Dövlət Qulluğu Məcəlləsi, Açıq |

[9] http://ogp.org.az/

| | | |
|---|---|---|
| | | hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı;<br><br>Milli iqtisadiyyatın on iki əsas sektoru üzrə strateji yol xəritələrinin hazırlanması;<br><br>“ASAN xidmət indeksi” üzrə qiymətləndirmə mexanizminin işlənməsinə cəlb olunublar. |

## Strateji hədəf 3

| Strateji hədəf | Vəzifələr | Görülmüş işlər |
|---|---|---|
| **Vətəndaş cəmiyyətinin inkişafı üçün özəl sektorun donor fəaliyyətini stimullaşdırmaq və bu sahədə institusional səviyyəyə nail olmaq** | Milli donor institutunun yaradılması korporativ sosial məsuliyyət mədəniyyətinin formalaşmasına, transmilli şirkətlərin, böyük biznes qurumlarının sosial sərmayə proqramlarının artmasına təkan verəcək.<br><br>Korporativ məsuliyyət üzrə strategiya və dövlət proqramları hazırlanacaq, qanunvericiliyə müvafiq dəyişikliklər ediləcəkdir. | 2011-ci ildə QHT-lərə Dövlət Dəstəyi Şurası tərəfindən KSM haqqında qanun layihəsinin hazırlanmasınada cəhd göstərilib.<br><br>2012-ci ildə KSM üzrə mövcud problemlərin aradan qaldırılması istiqamətində ilk sosial şirkət-“KSM Azərbaycan” yaradılıb.<br><br>İqtisadi İnkişaf Nazirliyi və Beynəlxalq Maliyyə Korporasiyasının əməkdaşlığı ilə təşkil olunmuş tədbirdə dünyanın qabaqcıl şirkətlərinin təcrübəsindən yaranmaqla Azərbaycan şirkətləri üçün Korporativ Etika Məcəlləsi hazırlanıb.<br><br>30.12.2012-ci il tarixdə NK "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"nın təsdiq edib. 2016-cı ildə sosial sifarişlər əsasında QHT-lər tərəfindən 37 layihə maliyyələşdirilib.<br><br>Ümumilikdə hal-hazırda Azərbaycanda korporativ məsuliyyət yetərincə inkişaf etməyib. Bu sahədə transmilli korporasiyaların fəaliyyəti üstünlük təşkil edir. Ekspertlərin gəldiyi nəticəyə əsasən, yerli |

| | | |
|---|---|---|
| | | şirkətlərin sosial fəaliyyət olaraq göstərdiyi xeyriyyəçilik tədbirləri KSM fəaliyyətinə aid edilə bilməz. Şirkətin KSM fəaliyyəti üçün strategiyaya sahib olması və hər hansı bir layihəyə məqsədyönlü şəkildə sərmayə qoyması lazımdır. |

## 6. 2013-2014-CÜ ILLƏRDƏ QHT QANUNVERICILYINƏ DƏYIŞIKLIKLƏR VƏ VC ÜÇÜN YARANMIŞ PROBLEMLƏR

QHT-lərin fəaliyyət göstərməsi üçün qeydiyyatdan keçməsini Azərbaycan qanunvericiliyində açıq tələb edən müddəa əvvəllər mövcud deyildi, lakin 15 fevral 2013 tarixində Milli Məclis Qrant haqqında və QHT-lər haqqında qanunlara bir sıra dəyişikliklər edərək QHT-lərin fəaliyyət göstərməsi üçün qeydiyyatdan keçməsi şərtini açıq şəkildə təsbit etdi.

15 fevral 2013-cü il tarixində İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərə görə isə 200 manatdan artıq vəsaitlər üçün donorla qrant müqaviləsi imzalanmalıdır; qrant müqaviləsi olmadan maliyyə vəsaiti və ya başqa maddi formada yardımın qəbul edilməsinə görə inzibati xətanın bilavasitə obyekti olmuş vəsait və əşyalar müsadirə olunmaqla vəzifəli şəxslər 2,500 manatdan 5,000 manatadək, hüquqi şəxslər isə 8,000 manatdan 15,000 manatadək miqdarda cərimə edilməsi nəzərdə tutulub.

17 Dekabr 2013-cü il tarixində QHT-lərin fəaliyyəti bağlı növbəti qanun dəyişiklikləri qəbul edilib. Bu dəyişikliklərdən biri – İnzibati Xətalar Məcəlləsinin 223-1.4-cü maddəsinin yeni redaksiyası Ədliyyə Nazirliyində qeydiyyata alınmamış qrant müqavilələri üzrə bank və digər əməliyyatların aparılmasına görə vəzifəli şəxslər üçün 2,500 manatdan 5,000 manatadək, hüquqi şəxslər üçün isə 5,000 manatdan 8,000 manatadək miqdarda cərimə nəzərdə tutur.

17 Dekabr 2013-cü il dəyişikliklərindən, sonra 17 Mart 2013-cü il tarixində Mərkəzi Bankın İdarə heyətinin qərarı qəbul olunub. Banklara tapşırılıb ki, qrant verilməsi və ya alınması ilə bağlı nağdsız hesablaşma və pul köçürmələri əməliyyatları yalnız qrant verilməsi və ya alınması haqqında hər bir müqavilənin qeydə alınmasını təsdiq edən sənəd təqdim olunduqda aparılsın. Bu dəyiişikliklərdən sonra qrant müqaviləsini Ədliyyə Nazirliyindən qeydiyyatdan keçirdikdən sonra qurumdan alınan bildirişi müvafiq banka tədim etmək və bunun əsasında maliyyə əməliyyatının aparılmasına nail olmaq olar.

Milli Məclis 2013-cü il dekabrın 17-də vətəndaş cəmiyyətlərinin fəaliyyəti ilə bağlı "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Qeyri Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Qrant haqqında" qanunlara və "İnzibati Xətalar Məcəlləsi"nə 8 əlavə 50-dək düzəliş edib.

Əlavələrin 7-si cərimələrin artırılması, 1-i QHT-lərin fəaliyyətinin 1 il müddətinə dayandırılması ilə bağlıdır. Bu dəyişikliklərdə hüquqi şəxslər üçün müəyyən edilən cərimələrin ümumi məbləği 8, fiziki şəxslər üçün isə

3 min AZN olub. 2014-cü ilin oktyabrında daha 4 dəyişiklik edilib.

Bu dəyişikliklərdən sonra  xarici donorlar Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnu əldə etdikdən sonra donor qismində çıxış edə bilərlər. Xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri olan donorların ölkədə rezident olmaq (Nümayəndəliyini qeydiyyata aldırmaq) şərti və ölkədə qeydiyyatdan keçmək üçün saziş bağlamalıdırlar.

Qrant vermək hüququnun əldə edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyi tələb olunur. Eyni zamanda sub-qrant müqavilələri, qrant müqaviləsinə əlavələr, qrant müqaviləsinin müddətinin, məbləğinin və məqsədinin dəyişdirilməsi də qrant müqaviləsi kimi qeydə alınmalıdır. Qrant vermək hüququnun əldə edilməsi üçün isə müvafiq icra hakimiyyəti orqanının qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyi tələb olunur.

Bu dəyişikliklər vətəndaş cəmiyyətinin xarici donorlardan qrant almaq imkanlarını xeyli məhdudlaşmasına səbəb olmuşudur. QHT-lərin beynəlxalq əlaqələri zəifləmiş, III sektorun cəmiyyət həyatının bütün sahələrində rolu və ümumilikdə mövqeyi zəifləməsi müşahidə edilmişdir.

Xarici donorlar Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnu əldə etməsi və və qrant müqavilələrinin qeydiyyata alınması prosedurlarının  mürəkkəbliyi donorların marağının azalmasına səbəb olmuşdur.

Bu dəyişiklər Azərbaycada Vətəndaş Cəmiyyətinin İnkişafi İndeksində göstəricilərinə də neqativ təsir etmişdir. **(Şəkil 4.Şəkil 5, Şəkil 6, Şəkil 7, Şəkil 8, Şəkil 9, Şəkil 10)**



## INFRASTRUCTURE: 5.5




## PUBLIC IMAGE: 5.7




## 2015 CSO SUSTAINABILITY INDEX SCORES

| COUNTRY | Legal Environment | Change | Organizational Capacity | Change | Financial Viability | Change | Advocacy | Change | Service Provision | Change | Infra-structure | Change | Public Image | Change | CSO Sustainability | Change |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **EURASIA** | | | | | | | | | | | | | | | | |
| Armenia | 3.9 | = | 3.7 | = | 5.2 | = | 3.2 | = | 3.8 | ↑ | 3.2 | ↑ | 3.9 | = | 3.8 | ↑ |
| Azerbaijan | 6.4 | ↓ | 5.7 | ↓ | 6.3 | ↓ | 5.9 | ↓ | 5.0 | ↓ | 5.5 | ↓ | 5.7 | ↓ | 5.8 | ↓ |
| Belarus | 6.7 | ↑ | 4.9 | ↑ | 6.4 | = | 5.4 | ↑ | 5.2 | ↑ | 5.2 | = | 5.7 | ↑ | 5.6 | ↑ |
| Georgia | 3.3 | = | 4.3 | = | 5.0 | = | 3.9 | = | 4.1 | = | 4.3 | = | 3.8 | = | 4.1 | = |
| Moldova | 4.2 | ↓ | 3.7 | = | 4.7 | ↑ | 3.3 | = | 4.2 | = | 3.4 | = | 3.9 | = | 3.9 | = |
| Russia | 5.6 | ↓ | 4.5 | ↓ | 5.0 | ↓ | 4.6 | ↓ | 4.2 | = | 4.1 | ↓ | 5.0 | ↓ | 4.7 | ↓ |
| Ukraine | 3.4 | = | 3.3 | = | 4.2 | = | 2.1 | ↑ | 3.2 | = | 3.4 | = | 3.3 | ↑ | 3.3 | = |
| *Average* | 4.8 | ↓ | 4.3 | ↓ | 5.3 | ↓ | 4.1 | ↓ | 4.2 | = | 4.2 | ↓ | 4.5 | ↓ | 4.5 | ↓ |

Qrafiklərdən də göründüyü kimi Hüquqi mühit, Təşkilati Bacarıqlar, İctimai Məlumatlandırma, Xidmətlərin göstərilməsi, İnfrastruktur, İctimai imic üzrə göstəricilər 1999-2000-ci illər səviyyəsinə qədər geriləyib. 2012-ci illə müqayisədə Azərbaycanın göstəriciləri hesabata daxil edilən MDB ölkələri ilə müqayisədə nəzərəçarpacaq dərəcədə pisləşib.

## 7. MÖVCUD VƏZIYYƏT

**2013-2014-cü illərdə QHT qanunvericilyinə dəyişikliklərdən sonra 2016-cı ildən başalayaraq QHT-lərin fəaliyyəti mühitin yaxşılaşdırılması istiqamətində müəyyən müsbət təşəbbüslər müşahidə olunur.**

31 yanvar 2016-cı il tarixə olan məlumata görə Azərbaycanda Dövlət qeydiyyatına alınan qeyri-kommersiya təşkilatlarının ümumi sayı artaraq **4300-ə çatıb**. Ədliyyə Nazirliyi tərəfindən «Fərdi elektron pəncərə» sistemi yaradılıb. QHT-lərin fəaliyyətində parktik problemlər həll edilib.

Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 oktyabr tarixli 1083 nömrəli Fərmanı imzalanıb.

Nazirlər Kabinetinin 11 yanvar 2017-ci il tarixli "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması" və 24 yanvar 2017-ci il tarixli "Xarici donorlar tərəfindən Azərbaycan Respublikası ərazisində qrant vermək hüququnun əldə edilməsi" Qaydalarında dəyişikliklər edilməsi barədə qərarları qrant müqavilələrinin qeydiyyatına süni maneələr və bürokratiya yarada bilən bir çox tələbləri ləğv edir və qeydiyyat prosedurunu asanlaşdırır. Təqdim olunacaq sənədlərin dairəsi xeyli dərəcədə azaldılır. Bir sıra sənədlərin notarial qaydada təqdim edilməsi ləğv edilir. Qrant müqavilələrinin xidmət müqaviləsi kimi qeydiyyata alınması imkanları yaranır.

Eyni zamanda xarici donorlar tərəfindən qrantların verilməsi proseduru xeyli sadələşdirilib. Təqdim olunmalı olan sənədlərin sayı azaldılıb. Müraciətə baxılması müddətləri 2 dəfəyədək azaldılıb. Qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyin verilməsindən imtina üçün əsaslar dəqiqləşdirilib.

Ümumi dəyəri 1 milyon dollardan çox olan 2014-cü ildə imzalanmış qrant müqavilələri qeydə alınıb.

2016-cı il ərsində Gənclər Fondu tərəfindən 2 qrant müsabiqəsi təşkil olunub, ümumilikdə 1008 layihə maliyyələşdirilib. Onların reallaşdırılması üçün Fond tərəfindən **4 859 300 manat** vəsait ayrılıb

Fond 2011-15-ci illərdə 7 qrant müsabiqəsi keçirib. Müsabiqələr zamanı Fonda müxtəlif layihələrlə bağlı

5080 müraciət daxil olub və onlardan 2333-ü müsbət cavab alıb. Ümumilikdə, bu layihələrə 13.5 milyon manatdan artıq vəsait ayrılıb.

Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası QHT-lərin layihələrinin maliyyələşdirilməsində 2016-cı ildə **5 369 535,0 manat** vəsait ayırıb. Bu vəsitdən 272728 manat xarici QHT-lərin layihələrinin maliyyələşdirilməsinə ayrılıb.

## 8. NƏTICƏLƏR

"İctimai iştirakçılıq haqqında" qanunun qəbulu, mərkəzi və yerli icra hakimiyyətləri, ali təhsil müəssisələri yanında İctimai Şuraların yaradılması prosesinə başlanılması müsbət tendensiya kimi qeyd edilməlidir.

Eyni zamanda Azərbaycanda Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması təsis olunması dövlət vətəndaş cəmiyyəti əlaqələrinin inkişaf etməsi, əməkdaşlığın institusional səviyyəyə qalxması əhəmiyyətli irəliləyiş kimi qeyd edilməldir. Platformanın yaranması Açıq Hökumət Təşəbbüsünün Azərbaycanda tətbiqinin genişləndirilməsi, bu prosesdə vətəndaş cəmiyyətinin yaxından iştirakı, digər məsələlərin həllinə yeni imkanlar verir. Platforma hər bir QHT üçün açıqdır. Əminik ki, Platforma hər bir QHT üçün müzakirə və əməkdaşlıq imkanlarını təmin edən çox əhəmiyyətli müstəvi kimi, Azərbaycan vətəndaş cəmiyyətinin güclənməsinə öz töhfəsini verəcəyi ilə bağlı əhəmiyyətli gözləntilər var.

Eyni zamanda Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə Milli Məclis, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanması, VC-nin qismən də olsa dövlət proqramlarının, Fəaliyyət Planlarının və normativ-hüquqi aktların hazırlanması prosesinə cəlb olunması praktikasının təşəkkül tapması da Konsepsiyadan irəli gələn vəzifələrin həlli istiqamətində müsbət addımlar kimi qiymətləndirilə bilər.

5 regionda QHT-lərin Resurs və Təlim Mərkəzlərinin yaradılması və fəaliyyəti regionlarda VC-nin təşkilatlanması, fəaliyyət sferasını genişləndirməsi üçün müəyyən imkanlar təqdim edir.

"Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"nın təsdiq edilməsi və QHT-lərin sosial sifarişlər əsasında layihələr icra etməsi də təşkilatı bacarıqları inkişaf etdirmək, QHT-lərin fəallığını təşviq etmək və maliyyələşmə mənbələrini genişləndirmək baxımından pozitiv məqam kimi qeyd oluna bilər.

2016-cı ildən başalayaraq QHT-lərin fəaliyyəti mühitin yaxşılaşdırılması istiqamətində müşahidə olunan müəyyən müsbət təşəbbüslər VC-nin potensilanının yaxın perspektivdə ən azı 2013-cü il səviyyəsində bərpa olunacağına ümidlər yaradıb.

Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında 9-cu – Vətəndaş cəmiyyətinin inkişafi istiqaməti üzrə qarşıya qoyulan məqsədlərə nail

olmaq üçün kifayət qədər səy göstərilməyib. Vətəndaş cəmiyyətinin inkişafi istiqaməti üzrə qarşıya qoyulan məqsədlərə nail olmaq üçün sistemli fəaliyyət nəzərə çarpmayıb.

Xüsusən Vətəndaş cəmiyyətinin inkişafi üçün özəl sektorun donor fəaliyyətini stimullaşdırmaq və bu sahədə institusional səviyyəyə nail olmaq istiqamətində qarşıya qoyulan məqsədə çatılması üçün kiçik irəliləyişlər belə nəzərə çarpmır.

İctimai həyatın müxtəlif sahələrində mövcud olan problemlərin alternativ həlli yolları ilə bağlı QHT-lərin əsaslandırılmış təklifləri diqqət mərkəzində saxlanılması ilə bağlı da gözlənildiyindən çox az iş görülüb. Həyata keçirilən tədbirlər və onların nəticələri isə ümumilikdə, Konsepsiyada elan edilən məqsəddə çatmaq üçün çox böyük məsafə olduğunu göstərir.

Xüsusi qeyd etmək lazımdır ki, indi əldə olunan hazırkı nəticələrə əsas Konsepsiyada qeyd edilən çağırış və hədəf və məqsəd (Vətəndaş cəmiyyətinin inkişafi Azərbaycanın sürətli sosial-iqtisadi inkişafi və milli maraqlarının təmin daha da dərinləşdirilməsini, dövlətlə vətəndaş cəmiyyəti institutları arasında münasibətlərin olunması demokratiyanın daim müasirləşdirilməsini, QHT-lərin fəaliyyətinin stimullaşdırılmasını zəruri edir) çox uzaq görünür. Əksinə 2014-cü ildən sonra baş verənlər VC-nin potensialını çox zəiflədib. Bu baxımdan qeyd etmək olar ki, bir çox məsələlərlə bağlı, Konsepsiyadakı çağırışlar və elan olunan hədəflərə doğru yox, əks istiqamətdə hərəkət baş verib.

## 9. TƏKLIFLƏR - BÖHRANDAN NORMALAŞMAYA DOĞRU

- Hökumətlət VC-nin mövcud dialoq və əməkdaşlıq mexanizmlərinin inkişaf etdirilməsi. QHT qanunvericiliyinin təkmilləşdirilməsi üçün birgə müzakirə və səylərin davam etdirilməsi.
- Açıq Hökumət Platformasının açıq müzakirələr, dialoq və əməkdaşlıq üçün çox əlverişli format və müstəvi kimi potensialının gücləndirilməsi.
- VCT-lərin fəaliyyətində şəffaflıq və hesabatlılığın artması, QHT-lərin ictimai reputasiyasının bərpası üçün təşəbbüslər göstərilməsi. Bu təşəbbüslər QHT sektorunun əksəriyyətinin qəbul etdiyi Etik standartların işlənilməsi və qəbulu; Apolitizasiya-siyasi proseslərdə tərəf kimi iştirakdan imtina edilməsi; Peşəkar dəyərlər – QHT sektrounun öz fəaliyyətində peşəkar dəyərlərin əsas götürülməsi və psevdomissiyadan imtina edilməsi ilə bağlı fəaliyyətləri əhatə etməlidir.
- QHT-lər tərəfindən VC-nin inkişafi üçün inkişaf strategiyasının hazırlanması və hökumətlə müzakirəsi.
- Könüllü hərəkatının, KSM strategiyalarının inkişaf etdirilməsi, VC-lərin müxtəlif konslatinq xidmətləri göstərilməsi üzrə ixtisaslaşması.
- Cəmiyyətin müxətlif təbəqələri və birabaşa vətəndaş və fərdlərlə iş qurulması və bunun hesabına

ölkə daxilində maliyyə resurslarının təmin edilməsi.

- Özəl sektroun VC ilə əməkdaşlığının təşviqi üçün  tədbirlər həyata keçirilməsi.